UOT 327

ZÜMRÜD MƏLİKOVA
Bakı Slavyan Universitetinin dosenti,
siyasi elmlər üzrə fəlsəfə doktoru
ORCİD İD: 0009-0001-1282-888X
zumrud.melik@gmail.com

YENİ DÜNYA DÜZƏNİNDƏ TÜRKİYƏNİN XARİCİ SİYASƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/85-91

Məqalədə beynəlxalq sistemin strukturu ilə dövlətlərin öz xarici siyasətini necə müəyyənləşdirməsi və maraqlarına uyğun hərəkət etməsi arasında sıx əlaqənin olduğu, Türkiyədə Ədalət və İnkişaf partiyasının xarici siyasətinin evolusiyası araşdırılır. 2002-ci ildən bəri Türkiyənin xarici siyasət fəaliyyəti aktivləşərək beynəlxalq və regional səviyyələrdə xarici inkişaflara uyğunlaşmağa istiqamətləndi. Bu dövrdə beynəlxalq sistemin təkqütblü nizamı sona çatdı və posttəkqütblü dünya düzənində Türkiyə daha çoxölçülü və çoxistiqamətli xarici siyasət nümayiş etdirdi. Məqalə dəyişən sistemli faktorların təsiri və Türkiyə xarici siyasətinin yeni istiqamətlərinin dəyişən nəticələrindən asılı olaraq onun xarici mühitə uyğunlaşması, yeni mərhələdə baş verən hadisələrə xarici siyasi reaksiyalarını araşdırır.

Açar sözlər: Türkiyə, xarici siyasət, beynəlxalq sistem, liberal beynəlxalq nizam, Yaxın Şərq regionu, təkqütblü sistem.

Giriş. Beynəlxalq sistemin strukturları ilə dövlətlərin öz xarici siyasət maraqlarını müəyyən edib, ona uyğun hərəkət etməsi arasında əlaqə vardır. 2002-ci ildə Ədalət və İnkişaf partiyasının (ƏİP) hakimiyyətə gəlməsi ilə Türkiyə beynəlxalq və regional səviyyədə xarici siyasətini xarici inkişaflara uyğunlaşdırmaq istiqamətində səylərini qismən artırdı. Bu məqalədə daxili və xarici amillərin təsiri altında xarici siyasətin geniş ölçüdə yürüdülməsi və sonuncunun əhəmiyyəti vurğulanır. Məqsəd xarici mühiti "məhdudiyyətlər və imkanlar məcmuəsi" kimi qiymətləndirmək, dövlətin daxili siyasi gündəliyini yerinə yetirmək üçün hakim elitaya kömək etdiyini, xüsusən də 21-ci əsrin əvvəllərindən etibarən Türkiyənin xarici siyasət prioritetlərinin və davranışının formalaşmasında rolunu göstərməkdir.

2002-ci ildən bəri Türkiyənin xarici siyasət seçimləri eyni zamanda həm sistemli, həm də daxili amillərlə şərtlənmişdi. Bu dövrdə Türkiyənin xarici hadisələrə reaksiyaları Əİ partiyası hökumətlərinin siyasi hesablamalarınının nəticəsi idi və bu struktur realizmin şərh olunması fikrini zəiflədir. Türkiyənin regional və sistem səviyyələrində baş verən hadisələrə cavabı struktur realistlərin gözləntilərinə uyğun idi. Baxmayaraq ki, xarici mühitin reallığı qərar qəbul edən şəxslərin öz siyasi hesablamalarına, dünyagörüşünə və xarici siyasət baxışlarına uyğun formalaşır [1], 21-ci əsrin ilk illərindən başlayaraq Türkiyənin xarici siyasət fəaliyyəti struktur realistlərin gözləntilərini doğrultdu. Türkiyənin xarici siyasət seçimləri sistemli və regional səviyələrdə qütbləşmənin dəyişən dinamikası ilə, eləcə də, ABŞ-ın rəhbərliyi altında liberal beynəlxalq düzənin legitimliyinə dair dəyişən baxışlarla sıx şəkildə dəyişikliyə uğradı.

2008-ci ildəki qlobal maliyyə böhranı öncəsi Türkiyənin xarici siyasət seçimləri demək olar ki, həmişə struktur realistlərin gözləntilərinə uyğun gəlirdi. Türkiyənin, qərbyönlü xarici siyasət yürütməsi (xüsusən də Yaxın Şərqdə) onun hakim elitasının siyasi hesablamalarına uyğundur deyə deyil, həm də ABŞ-ın rəhbərlik etdiyi liberal beynəlxalq düzümün güclü legitimliyi, həmçinin Qərbin xeyrinə güc disbalansı Türkiyəyə başqa seçim imkanı vermədi. Bu dövrdə Türkiyənin xarici siyasətinin inkişaf yolu Qərb dövlətlərinin strateji siyasətinə, xüsusən də Yaxın Şərqdəki maraqlarına uyğun gəlirdi.

Məqalənin əsas məqsədi Yaxın Şərq regionunda baş verən hadisələrin Türkiyənin xarici siyasət maraqları və davranışlarına ciddi şəkildə təsir etdiyini, onun xarici siyasətinə struktur realizm və neoklassik realizm nəzəriyyəsi kontekstində baxmaqdır. Eləcə də, 21-ci əsrin əvvəllərindən etibarən beynəlxalq düzənin strukturunda baş verən dəyişikliklərin Türkiyənin xarici siyasətinin təkamülündə necə öz əksini tapa bildiyini anlamaqdır.

Məqalədə maddi və normativ ölçülər kontekstində beynəlxalq sistemin strukturunda baş verən dəyişikliklərin qısa təsviri verilmiş, 2002-ci ildən etibarən Türkiyənin xarici siyasət performansındakı dəyişikliklərə diqqət yetiriləcəkdir. Beynəlxalq düzəndə təkqütblülük, ikiqütblülük və ya çoxqütblülük xüsusiyyətlərinin təzahürü dövlətlərin xarici siyasət maraqlarını və davranışlarını necə formalaşdıracağına mütləq təsir göstərdiyi qeyd olunaraq araşdırılan dövr 2 mərhələyə bölünüb: birinci dövr 2002-2008-ci illər, ikincisi 2008-2015-ci illər. Hər bir dövrdə Türkiyənin xarici siyasəti beynəlxalq düzənin strukturunda müşahidə edilən dəyişikliklərlə uzlaşan diqqətəlayiq fərqli davranış nümayiş etdirir.

Dünya düzənində dəyişikliklərin Türkiyənin xarici siyasətinə təsiri. Dünya düzənində dəyişikliklər 21-ci əsrin ilk illərindən hiss olunmağa başlandı və beynəlxalq siyasətin ağırlıq mərkəzi tədricən Transatlantik regiondan Sakit Okean/Hind-Sakit okean regionuna keçdi. Belə ki, qeyri-qərb güclərinin, xüsusən də Çinin artan güc imkanları qarşısında qərb aktorlarının beynəlxalq siyasətdə üstünlüyü güclü problemlərlə üzləşdi. Onlar ABŞ-ın rəhbərlik etdiyi liberal beynəlxalq düzənin ideya və normativ əsaslarına qarşı çıxdılar. Bir dövrdə dünya transformasiya prosesindən keçdi və "Pax-Americana" tədricən öz yerini beynəlxalq hadisələrin gedişatının formalaşmasında həmişəkindən daha təsirli olan bir qrup qeyri-qərb ölkələrinin post-amerikan dünya düzəninə verdi [4]. Bu transformasiya 2008-ci ildə baş verən maliyyə böhranından sonra sürətlənib, ilk növbədə ABŞ və bir çox Aİ üzvlərinə təsir etdi. 1990-cı illərin əvvəllərindən 2008-ci ilə qədər ABŞ, onun NATO üzrə avropalı müttəfiqləri və Avropa İttifaqı (Aİ) ilə birgə beynəlxalq siyasəti diktə etdi. Bu "liberal beynəlxalq düzənin" çiçəklənməsi dövrü idi. ABŞ təkqütblü dünyada fövqəldövlət statusundan maksimum istifadə etdi. Onun iqtisadiyyatı güclü, hərbi qüdrəti isə müqayisəolunmaz idi [11]. Onun təsiri, nəinki Mərkəzi və Şərqi Avropadakı keçmiş kommunist ölkələrində tədricən genişləndi, həm də ABŞ-ın böyük maddi qüdrəti və güc imkanları ona bütün dünyada güclü strategiyalar həyata keçirməyə imkan verdi. 11 sentyabr (11.09.2001) hücumlarından sonra ABŞ-ın Əfqanıstana hərbi müdaxiləsi və 2003-cü ildə İraqın işğalı, liberal demokratik düzənin təşviqində amerikalıların həddindən artıq özgüvənindən xəbər verirdi [2]. 2008-ci ilə qədər Çinin yüksəlişi ABŞ-ın strateji mülahizələrində mərkəzi yer tutmurdu, Aİ isə öz qüdrətinin zirvəsində idi. Amerikalıların və avropalıların təhlükəsizlik strategiyaları, konsepsiyaları Qərbdə firavanlıq, nikbinlik və özünə inam nümayiş etdirdi. Nə Corc Buş, nə də B. Obama administrasiyalarının qəbul etdiyi milli təhlükəsizlik strategiyalarında, nə də Aİ-nin 2003-cü ildə qəbul edilmiş ilk təhlükəsizlik strategiyasında liberal beynəlxalq dünya düzəninə potensial təhlükələr kimi böyük güc rəqabəti və ideoloji qütbləşmə qeyd olunmamışdı [6; 7]. Qərbdə bir çox dairələr Fukuyamanın Sovet İttifaqının dağılması ilə tarixin sona çatdığı tezisi ilə təsəlli tapdılar. ABŞ-a 11 sentyabr hücumları qüdrətli qlobal hegemon kimi onun imicinə zərbə vurdu. Terrorla qlobal mübarizəyə Amerikanın yanaşmasının tənqid olunması ABŞ-ın İraqı işğalından sonra gücləndi. Məhz 2000-ci illərin sonlarında yaşanan maliyyə böhranından sonra ABŞ-dakı qərb elitalarına və Aİ üzvlərinə tənəzzül hissi nüfuz etməyə başladı. Nikbinlik hissi zəiflədi, Qərb dövlətlərinin üstünlüyünə meydan oxuyan qeyri-qərb güclərinin kabusu bir çox qərblini təqib etməyə başladı. Rusiya və Çinin dirçəlişi, sistemdə rolu artan qeyri-qərb güclərinin liberal beynəlxalq düzənin institusional quruluşunda yer almasına olan çağırışları daha yüksək səslə eşidilməyə başladı.

2008-ci ildən bəri bütün dünyada multikulturalizm dəyərləri, şəffaflıq, tolerantlıq və ümumbəşəri insan hüquqlarına dair mübahisələr gedir. Ümumbəşəri kosmopolitizm əxlaqı tədricən öz yerini nisbi kommunitarizm əxlaqına verdi. Nüfuzunu genişləndirən qeyri-qərb gücləri, ilk növbədə, Çin və Rusiya getdikcə daha çox beynəlxalq siyasi düzənin qeyri-qərb konseptuallaşdırmalarını təklif etməyə başladılar. 21-ci əsrin əvvəllərindən etibarən Rusiya və Çin rəhbərlərinin prioritetlərinə: dövlətlərin daxili işlərinə qarışmamaq, dövlət suverenliyinin üstünlüyü, avtoritar idarəçilik, milli kimliklərin güclənməsi, dövlət kapitalizmi, təsir sferalarının mentaliteti, qlobal idarəçilikdə çoxqütblülük, beynəlxalq münasibətlərdə böyük güclərin prioritetliyi, merkantilist ticarət təcrübələri, hərbi potensiala sərmayə qoyulması, güc imkanları, geosiyasi mənfəətlərini təmin etmək üçün iqtisadi güc alətlərindən geniş istifadə etmək kimi məsələləri aid etmək olar [8]. Bu o demək deyil ki, Çin kimi ölkələr liberal beynəlxalq düzəndə, xüsusən də iqtisadi sahədə qazanc əldə etməyiblər. Çin liberal-kapitalist dünya düzənində qərb sponsorluğundan daha çox gəlir əldə etdi. Qərb dövlətləri, xüsusən də ABŞ Çinin liberal-demokratik dövlətə tədricən transformasiya edəcəyini fərz etdikcə onun yüksəlişinə, onlara uyğun olmayan

ticarət təcrübələrinə və qeyri-demokratik siyasi dəyərlərinə dözmək məcburiyyətində qaldı. Bu yolda Qərb dövlətləri bəzi iqtisadi itkiləri də gözə aldılar.

Qərb dövlətləri də belə cərəyanlardan sığortalanmamışdı. Son 20 ildə əsas Qərb ölkələrində populist və qeyri-liberal siyasi hərəkatların yüksəlişinin şahidi olduq. Liberal demokratik təcrübələrin daxili tənqidi liberal dünya düzənin cəlbediciliyinə ciddi təsir göstərdi. Böyük Britaniyada Brexit haqda qərar və Donald Trampın ABŞ prezidenti seçilməsi göstərdi ki, qeyri-liberalist, populist, proteksionist və ksenofobiya qüvvələri əsasən Qərb ölkələrində möhkəmlənib lər.

Bütün dünyada maddi güc imkanlarının dəyişməsinə və liberal beynəlxalq düzənin normativ əsaslarına artmaqda olan çağırışlarla paralel olaraq, xarici siyasətdə realpolitik praktikaları və milli maraqların müəyyənləşdirilməsində praqmatik problemlər daha qabarıq şəkildə ifadə edilməyə başladı. 21-ci əsrin əvvəllərindən güc siyasəti və "təsir dairəsi" mentaliteti canlanmağa başladı. Dövlətlərin xarici siyasətində geoiqtisadi və geosiyasi motivlər daha həlledici oldu, müttəfiqlik əlaqələrinin dinamikası da radikal transformasiya etdi. İdentikliyə əsaslanan uzunmüddətli ittifaq əlaqələri qısamüddətli, strateji tərəfdaşlıqların problemlərinə yönələn və praqmatik siyasətlə əvəz olundu.

Çoxtərəfli və ikitərəfli istiqamətlər çərçivəsində maraq yönümlü əməkdaşlıq təşəbbüslərinin formalaşdırılması təcrübəsi son illərdə geniş vüsət alıb. Müasir dünyada fərqli dəyər təmayüllərinə, coğrafi mövqelərə, güc imkanlarına və təhlükə qavrayışına malik olan ölkələr artıq bir-birilərini düşmən və ya dost kimi qəti şəkildə müəyyənləşdirmək məcburiyyətində deyillər. "Frenemy" anlayışı artıq dövlətlərarası münasibətlərdə identikliyi ifadə edir. ***Missiyaları təyin edən koalisiya praktikası tədricən öz yerini koalisiyaları təyin edən missiyalar praktikasına verdi.*** Soyuq müharibə dövrü ikiqütblülüyündən və soyuq müharibədən sonrakı iki onillikdə təkqütblü düzəndən fərqli olaraq, praqmatik və liberal dövlətlərlə əməkdaşlığın nəticələrinə əsaslanan qeyri-liberal avtoritar dövlətlərin praktikası mümkün görünürdü.

2002-2008-ci illərdə Türkiyənin xarici siyasətində qərbyönlü realizm üstünlük təşkil edirdi. ƏİP hakimiyyətinin ilk onilliyində Türkiyə öz xarici siyasətində strateji səbəblərdən qərbyönlü mövqe tutdu və qeyri-qərb mühitlərdə, xüsusilə də Yaxın Şərqdə daha çox iştirak etdi. Türkiyə nəinki Aİ-yə qoşulmaq niyyətinə sadiq qaldı, həm də qeyri-qərb coğrafiyalarında qərb dəyərlərinin təbliğini dəstəkləmək istəyini getdikcə daha çox nümayiş etdirdi. Türkiyənin Yaxın Şərqdə yeritdiyi qərbyönümlü xarici siyasəti onun hakim siyasi elitasının nəzərində liberal beynəlxalq dünya düzəninin nə qədər cəlbedici olduğunun sübutu idi [9]. ABŞ-ın rəhbərlik etdiyi Böyük Yaxın Şərq Təşəbbüsündə Türkiyənin iştirak etmək istəyi göstərirdi ki, Yaxın Şərqin liberal demokratik dəyərlərə uyğun yenidən qurulması onun əsas xarici siyasət marağındadır.

ƏİP siyasətçilərinin milli avropalaşma prosesini sürətləndirmək üçün daxili motivasiyalarını bir kənara qoysaq Türkiyə üçün beynəlxalq düzən anlayışı bütün əks çağırışlara rəğmən, beynəlxalq münasibətlərdə Qərbin üstünlüyünün mübahisəsiz olduğu idi. Birqütblü dünya düzənini nəzərə alaraq, Türkiyənin hakim siyasi elitası Qərbin liberal demokratik dəyərlərinin mənimsənilməsini onun iqtisadi, sosial və siyasi problemlərin ən uyğun həllini təmin edəcəyini güman edirdi. Ölkənin daxilində artan avropalaşma və demokratikləşmə səyləri ilə paralel olaraq, qərb dövlətləri tərəfindən Böyük Yaxın Şərq bölgəsindəki ölkələr üçün Türkiyənin model kimi uğurlu rol oynayacağı görünürdü. Yaxın Şərqdə Hobbs təhlükəsizlik mühitinin Kant mühitinə çevrilməsi Türkiyənin iqtisadi inkişaf prosesini uğurla başa çatdırmaq, eləcə də ərazi bütövlüyünü və ictimai birliyini qorumaq səyləri üçün həyati əhəmiyyət kəsb edirdi.

Bu dövr ərzində Türkiyənin Yaxın Şərq siyasəti, şübhəsiz ki, Avropayönümlü xarakter daşıyırdı. Türkiyə Çinin Şərqi və Cənub-Şərqi Asiyada dinc yüksəlişi və inkişaf siyasətinə oxşar olaraq, öz yaxın xaricinin, yəni yerləşdiyi regionun yenidən şəkillənməsinə kömək etmək istəyirdi. Eyni zamanda regional hadisələrin onun daxili transformasiya prosesinə mane olmamasını təmin etmək istəyirdi. Türkiyənin xarici siyasətinin alətləri, qərar qəbuletmə prosesinin üslubu və regional məsələlərdə qəbul edilən xarici siyasət seçimlərinin məzmunu kifayət qədər Avropayönümlü idi. Türkiyə realist xarici siyasətini liberal alətlərlə yürütdü. Hakim elitanın "strateji dərinlik" doktrinası və "qonşularla sıfır problem" xarici siyasət mantrası bəziləri tərəfindən Türkiyənin imperiya üslubunda neo-Osmançılıq gündəmi kimi qiymətləndirilsə də, bu dövrdə Türkiyənin xarici siyasəti imperiya ambisiyalarından uzaq idi. Türkiyənin Yaxın Şərqlə əlaqəsi, özünün təhlükə hiss etməməsi üçün bölgəni Avropa dəyərləri və

təcrübələri ilə sabit, təhlükəsiz mühitə çevirmək kimi strateji motivasiyadan ilhamlanmışdı. Cənubdakı qonşularla, xüsusilə də Suriya və İranla daimi təhlükəsizlik problemlərinin aradan qaldırılmasına çalışmaq və Aİ nümunəsində regional inteqrasiya prosesinin yaradılmasına yardım etmək Türkiyənin Yaxın Şərqdəki regional siyasətinin əsas sütunlarından biri idi [8]. Türkiyənin Yaxın Şərqdəki qonşularının siyasi rejimlərinin qeyri-demokratik və avtoritar xarakter daşıması türk hakim siyasi elitasının onlarla sıx və funksional əlaqələr qurmasına mane ola bilmədi. Türkiyənin bu dövrdə realist xarici siyasəti yürütdüyü açıq görünürdü.

Uzun müddət Qərb beynəlxalq birliyinin üzvü olan Türkiyənin məqsədi mövcud liberal beynəlxalq düzəni pozmaq deyildi. Türkiyənin bir çox digər yüksələn güclər kimi mövcud düzənin ədalətsiz olduğunu hiss etməsinə və qərb güclərinin hegemonluğuna üstünlük verməsinə baxmayaraq, Türkiyənin liderləri öz xarici siyasətlərində liberal beynəlxalq nizam anlayışını kökündən dəyişdirməmişdilər. Türkiyə mövcud düzənin liberal demokratik dəyərlərindən kifayət qədər razı idi, lakin o, qeyri-qərb güclərinin mövcud beynəlxalq təsisatlarda daha çox səsə malik olmasını və daha yaxşı təmsil olunmasını istəyirdi: o zaman beynəlxalq düzən maddi güc imkanlarının mövcud bölgüsünü daha yaxşı əks etdirə bilərdi.

Türkiyənin siyasi elitası Rusiya ilə münasibətlərin yaxşılaşdırılmasına və Çinlə yaxınlaşmaya böyük diqqət yetirmələrinə baxmayaraq, Türkiyənin beynəlxalq oriyentasiyasında Avrasiya mərkəzli mövqedən çıxış edənlərin sayı çox deyildi. 2008-ci ilin yayında Rusiyanın Gürcüstana təcavüzünə Türkiyənin reaksiyası ABŞ və Aİ-nin bir çox üzvlərinə nisbətən daha yumşaq olmasına baxmayaraq, Türkiyə Rusiyanın qonşu ölkələrə öz şərtlərini diktə etmək üçün sərt gücdən istifadə etməsindən narahat idi. Türkiyə Rusiyanın Avropa qitəsində post-modern təhlükəsizlik nizamına meydan oxumasını müsbət qarşılamadı [12].

Türkiyənin xarici siyasətində strateji muxtariyyat axtarışı. 2008-2015-ci illərdə Türkiyənin xarici siyasətində strateji muxtariyyat axtarışı meylləri gücləndi [3]. 2007-ci ilin yayında keçirilən parlament seçkilərində ikinci dəfə qələbə qazandıqdan və bütün əks cəhdlərə baxmayaraq, Abdulla Gülün prezident seçilməsindən sonra Əİ partiyasının liderləri ölkə daxilində və xarici aktorlarla münasibətlərdə identikliyə əsaslanan transformasiya prosesini hərəkətə gətirəcək qədər özgüvənli idilər. Bu, Türkiyənin qərb aktorları ilə münasibətlərinin tədricən pisləşməsi və 2008-ci il qlobal maliyyə böhranından sonra qlobal siyasətdə Qərbin üstünlüyünün davamlı şəkildə azalması ilə üst-üstə düşdü. Aİ ilə münasibətlərin soyuması və ABŞ ilə artan fikir ayrılıqları nəticəsində Türkiyə davamlı olaraq strateji muxtariyyət axtarışına başladı. 2005-ci ildə Aİ ilə üzvlük danışıqlarının başlaması uğurlu olmadı. Türkiyənin perspektivli Aİ üzvlüyünə (ideya və normativ faktorlar əsasında) Avropanın artan müxalif mövqeyinə rəsmi Ankara üzvlük meyarlarını yerinə yetirməkdə qətiyyətinin azalması ilə qarşılıq verdi. Avropada iqtisadi böhran Aİ üzvlüyünü daha az cəlbedici etdi [9]. Əsasən də, Yaxın Şərqdəki strateji prioritetlərin fərqli olması səbəbindən ABŞ ilə münasibətlərin pisləşməsi Türkiyənin xarici siyasətində qərb istiqamətini daha da zəiflətdi.

2008-2015-ci illər arasında Türkiyənin xarici siyasətində, xüsusən də Yaxın Şərqdə güclü normativ və mənəvi mülahizələr üstünlük təşkil etdi. Yaxın Şərqdə "ərəb baharı" kontekstində baş verən inqilabi dəyişikliklər fonunda Türkiyə transformasiya xarakterli regional siyasət yürütməyə başladı. Türkiyə liderləri onların saatının nəhayət gəlib çatdığına inanırdılar [8]. Böyük Yaxın Şərqdə inqilabların başlanmasından 2015-ci ilin ortalarına qədər Türkiyənin bir nömrəli xarici siyasət hədəfi yeni regional düzənin yaradılması idi, hansı ki, nümayəndəli demokratiyanın və regionalizmin gücləndirilməsində aparıcı rolu Türkiyə oynayacaqdı. Aparıcı rol oynamaq Türkiyənin bölgədəki xarici aktorların izini silmək və maraqlarını Əİ partiyasının idarə etdiyi Türkiyə ilə uyğunlaşdıracaq yeni güc blokları ilə əvəz etmək əzmi ilə uyğun gəlirdi. Bu müddət ərzində aydın oldu ki, Türkiyənin məqsədləri və vasitələri arasındakı uçurumun qısa müddətdə aradan qaldırılması çox çətindir. Türkiyənin, xüsusən də Suriyada gözləntiləri və imkanları arasındakı boşluqdan müəyyən əziyyət çəksə də, regionda baş verən hadisələrdən ən azından mənəvi faydalanacağına inamı var idi. Türkiyənin strateji muxtariyyət axtarışı əsasən, Obamanın dövründə ABŞ-ın "xərcləri ixtisar siyasəti", eləcə də Aİ-nin daxilində yaşanan struktur problemlərinin fonunda onun Yaxın Şərqdə uğursuzluğu ilə formalaşdı və dəstəkləndi.

Obama administrasiyasının Amerikanın Yaxın Şərqdəki mövcudluğunu azaltmaq (ABŞ əsgərlərini tədricən Əfqanıstan və İraqdan çıxarmaqla) və Suriyadakı vətəndaş müharibəsindən uzaq durmaq

əzmi, Türkiyəni regionda daha iddialı rol oynamağa sövq etdi [8]. 2008-ci il iqtisadi böhrandan sonra həm ABŞ, həm də Aİ üzvləri öz ölkələrində iqtisadi və sosial problemlərə diqqət ayırmağa başlayıb, xaricdə dövlət quruculuğu və demokratiyanın təşviqi sahəsində fəaliyyətlərini məhdudlaşdırdılar. ABŞ prezidenti B.Obamanın Böyük Yaxın Şərqin müharibə zonalarında "arxadan liderlik etmək" strategiyası və onun ikinci prezidentlik müddətinin ilk illərində "Asiyaya dönüş" siyasətini qəbul etməsi, Türkiyə kimi regional ölkələrin xarici əlaqələrdə artıq dərəcədə strateji muxtariyyət nümayiş etdirməsinə şərait yaratdı.

Eyni şəkildə, Obamanın "strateji səbr" və "ixtisar" siyasəti Çin, Rusiya və digər güclənən qeyri-qərb dövlətlərinin xarici siyasətlərində iddialı mövqelərini möhkəmləndirmək üçün yol açdı. Obamanın ABŞ-ın təhlükəsizlik öhdəliklərinin bir qismini başqalarına həvalə etməsi, sülh və sabitliyin yaranma ehtimalının daha yüksək olacağına dair fərziyyəsi, bir çox ölkəni ABŞ-ın son tənəzzül dövrünə qədəm qoyduğu və postamerika dünya nizamının daha tez qurulacağı qənaətinə gəlməsinə səbəb oldu. Türkiyənin strateji muxtariyyət axtarışının Obamanın formalaşmaqda olan postamerika dünyasında ilk ABŞ prezidenti olduğunu etiraf etməsi ilə üst-üstə düşməsi təsadüfi deyildi.

Beynəlxalq düzəndə bir-birinə qarşı olan güc blokları arasında ideoloji qütbləşmə soyuq müharibə dövründə olduğu kimi kəskin və sərt deyildi. Liberal Qərb dövlətləri ilə qeyri-liberal avtoritar güclər arasındakı qarşılıqlı əlaqə soyuq müharibə dövründə Qərbin kapitalist və Şərqin kommunist ölkələri arasında olduğundan daha yüksəkdir. Bu onu göstərir ki, biz indi çox faktorlu dünya düzənində yaşayırıq [8]. Beynəlxalq münasibətlərdə nəinki aktorların sayı daha çoxdur, həm də problemlər o qədər mürəkkəbləşib ki, onları həll etmək getdikcə daha çox qlobal perspektiv tələb edir. Hal-hazırki dünya düzəni xaotik olub müxtəlif güc imkanlarına malik dövlətləri çoxölçülü və çoxistiqamətli xarici siyasət strategiyaları qəbul etməyə məcbur edir. Müəyyən bir qrup ölkələrin uzunmüddətli struktur baxımından digərlərinə qarşı birləşməsi artıq seçim deyil.

Beləliklə, 21-ci əsrin əvvəllərində Türkiyədə iqtidara gələn Əİ partiyası hökumətlərinin xarici siyasəti təkqütblü dünya düzəninin başa çatması, beynəlxalq siyasətdə qeyri-qərb güclərinin nüfuzunun artması şəraitində formalaşıb dəyişikliyə uğradı. 21-ci əsrin ikinci onilliyində yerləşdiyi regionda təhlükəsizlik təhdidlərinin artması və yenilərinin ortaya çıxması fonunda Türkiyənin xarici siyasətinin muxtarlaşması açıq şəkildə görünməyə başladı. Yaxın Şərqdə geosiyasi rəqabətin güclənməsi regionun əsas aktorlarından olan Türkiyənin özünəməxsus xarici siyasət davranışı nümayiş etdirməsini şərtləndirdi.

Nəticə. Bu məqalədə beynəlxalq nizamın quruluşu və təkqütblü və posttəkqütblü dünya düzənində Türkiyə xarici siyasətinin inkişafının bir-biri ilə sıx bağlı olduğu göstərilir. ABŞ-ın avropalı müttəfiqləri ilə əməkdaşlıq edərək öz hegemoniyasını formalaşdırdığı birqütblü beynəlxalq sistem evolusiya edib posttəkqütblü dövrə keçdi. Bu dövrdə Türkiyə daha çoxölçülü və çoxistiqamətli xarici siyasət həyata keçirmək üçün səylərini artırdı. Beynəlxalq siyasətdə Qərb dövlətlərinin nisbi çəkisinin tədricən azalması və buna paralel olaraq qeyri-qərb güclərin təsirinin artması müşahidə olundu. Bu da Türkiyənin xarici siyasətində manevr imkanlarını və beynəlxalq danışıqlarda gücünü və çəkisini artırdı.

Dünya postamerika nizamına daha çox yaxınlaşdıqca Türkiyə gücləndi və daha cəsarətli, daha iddialı xarici siyasi mövqe tutmağa başladı. Türkiyənin qonşu ölkələrə nisbətən iqtisadi gücünün artması müşahidə olundu. Türkiyənin hərbi sənayeyə investisiyaları artırması və müstəqil xarici siyasət kursu yürütməsi onun muxtar siyasətinin göstəricisi idi.Baxmayaraq ki, Türkiyə əvvəlkitək NATO üzvlüyünü və Aİ-yə perspektiv üzvlüyünü dəstəkləyir, son illərdə daha çox Rusiya və Çinə yaxınlaşma meyli artmaqda, Yaxın Şərqdə həmişəkindən daha fəal rol oynamaqdadır. 2018-ci ildən etibarən Türkiyənin xarici siyasət davranışı və xarakteri dünya düzənindəki dəyişikliklərin təsiri altında transformasiya edərək realizmə əsaslanan siyasətə keçdi.

ƏDƏBİYYAT

1. Brian Rathbun. A Rose by Any Other Name: Neoclassical Realism as the Logical and Necessary Extension of Structural Realism / Security Studies 17, no. 2., 2008. p.294–321. - https://doi.org/10.1080/09636410802098917

2. Constance E. Duncombe, Tim Dunne. After Liberal World Order / International Affairs 94, no. 1 (2018): p.25-42. - https://www.chathamhouse.org/sites/default/files/images/ia/INTA94_1_3_234_Duncombe_Dunne.pdf [16.04.2025].
3. Ekrem T. Başer. Shift-of-axis in Turkish Foreign Policy: Turkish National Role Conceptions Before and During AKP Rule / Turkish Studies 16, no. 3., 2015, p.291-309.
4. G.John Ikenberry. The Plot against American Foreign Policy: Can the Liberal Order Survive? / Foreign Affairs, May/June 2017. - https://www.foreignaffairs.com/articles/united-states/2017-04-17/plot-against-american-foreign-policy [16.04.2025].
5. The National Security Strategy of the United States of America, December 2017, https://www.acq.osd.mil/ncbdp/docs/NSS-Final-12-18-2017-0905.pdf [16.04.2025].
6. National Security Strategy, May 2010. - http://nssarchive.us/national-security-strategy-2010/ [16.04.2025].
7. European Security Strategy. A Secure Europe in a Better World, December 2003/ - https://europa.eu/globalstrategy/en/europeansecurity-strategy-secure-europe-betterworld) [16.04.2025].
8. Oğuzlu Tarık. Turkish Foreign Policy in a Changing World Order /All Azimuth Volume 9, no1., 2020. p.127-139.
9. Oguzlu Tarik. Turkey and the European Union: Europeanization without membership /*Turkish Studies* 13, no 2., 2018. p.229.
10. Shared Vision, Common Action: A Stronger Europe A Global Strategy for the European Union's Foreign And Security Policy", June 2016. - https://eeas.europa.eu/archives/docs/top_stories/pdf/eugs_review_web.pdf [16.04.2025].
11. Ross Dennis (2025). How to Match Ends and Means in the Middle East. America Must Rediscover the Practice of Statecraft. https://www.foreignaffairs.com/united-states/how-match-ends-and-means-middle-east [16.04.2025].
12. Ziya Oniş, Şuhnaz Yılmaz. Turkey and Russia in a Shifting Global Order: Cooperation, conflict and asymmetric interdependence in a turbulent region / Third World Quarterly 37, no 1, 2016. p.71-95.

ЗУМРУД МАЛИКОВА
Доцент Бакинского Славянского университета,
доктор философии по политическим наукам

ВНЕШНЯЯ ПОЛИТИКА ТУРЦИИ В НОВОМ МИРОВОМ ПОРЯДКЕ

В статье исследуется тесная связь между структурой международной системы и тем, как государства определяют свою внешнюю политику и действуют в соответствии со своими интересами, а также эволюция внешней политики Турции во главе с партией Справедливости и Развития. С 2002 года внешнеполитическая деятельность Турции активизировалась и была направлена на адаптацию к внешним событиям на международном и региональном уровнях. В этот период однополярный порядок международной системы подошел к концу, и в условиях постоднополярного мирового порядка Турция продемонстрировала более многомерную и многонаправленную внешнюю политику. В статье рассматривается адаптация Турции к внешней среде в зависимости от меняющихся результатов новых направлений ее внешней политики, с влиянием меняющихся системных факторов.

Ключевые слова: Турция, внешняя политика, международная система, либеральный международный порядок, регион Ближнего Востока, однополярный порядок.

ZUMRUD MALIKOVA
Associate Professor of Baku Slavic University,
Doctor on Philosophy in Political Science

TÜRKİYE'S FOREIGN POLICY IN THE NEW WORLD ORDER

The article explores the development of the foreign policy of the Justice and Development Party in Türkiye, highlighting the intricate connection between the international system's structure and the manner in which states formulate their foreign policy and pursue their interests. Since 2002, Türkiye has engaged in more proactive foreign policy initiatives, focusing on adjusting to international and regional developments. In this timeframe, the unipolar structure of the international system concluded, leading to a post-unipolar world order in which Türkiye adopted a more multifaceted and multi-directional approach to its foreign policy. The article analyzes Türkiye's adjustments to the external environment and its foreign policy reactions to recent developments in this new phase, independent of the shifting systemic factors and influenced by the evolving outcomes of its new foreign policy directions.

Keywords: Türkiye, foreign policy, international system, liberal international order, Middle East region, unipolar order.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: s.e.d. Ramiz Sevdimalıyev, s.e.d. Adil Mirabdullayev.